Azərbaycan ordusu.- 2020.- 8 noyabr. S. 1; 4-5.



*Vətən müharibəsindən reportaj*

# Döyüşçülər "Bayrağım - varlığım, bəxtiyarlığım!" deyir, Vətənim!

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

*Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək.*



Payızın əvvəllərinəcən dan yeri belə sökülmürdü. Payızın ilk ayının sonlarınacan bu yollar bunca uzanmırdı...

Əvvəllər buralar ön xətt idi, əsgərlərimizin döyüş növbətçiliyi apardığı mövqelərin əksəriyyəti indi arxa cəbhədi - döyüşlərdən xeyli uzaqlardadı. Ürəyim məni sökülən dan yerinin içindən keçirib həmin uzaqlığa yetirməkdədi; bu şərti uzaqlığa gec çatmağımız mənə də, yol yoldaşlarıma da könül rahatlığı verir. "Kaş yolumuz Şuşayacan uzanaydı!.." - mənə elə gəlir ki, şəhidlərimizin ruhunun səsini eşidərəm: "Bu niyyətin döyüşləri gedir. Vətən müharibəsi bu niyyətin müharibəsidi".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi bir kəlamı xatırlayıram: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Ordumuz bu kəlamı döyüş-döyüş gerçəkləşdirir. Neçə aylar əvvələ kimi əsgərlərimiz "Böyük Qələbənin yolları üstə səngər müvəqqəti dayanacaqdı" deyirdi. Yüksək döyüş əzminə, qələbə ruhuna, döyüş sevgisinə malik olan əsgərlərimiz dediyini yerinə yetirməkdədi.

Xudafərin körpüsünün işğaldan azad edilməsi həm ərazinin ermənisizləşdirilməsi kimi, həm də bəzi səngərlərin sərhədlərə köçürülməsi kimi qələbədi. Bu qələbə qüdrətin bir hissəsidi. Bu, əsgərlərimizin qələbə ruhunu qələbələşdirən qüdrətdi. Bu, erməni işğalını sonlandıracaq, ermənilik kimi təzahür edən neofaşizmin başlanğıc kimi regionda məhvini gerçəkləşdirəcək qüdrətdi. Bu qüdrət səmavi qüdrətdi!..

**(Ardı 4-5-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Döyüşçülər “Bayrağım - varlığım, bəxtiyarlığım!” deyir, Vətənim!

(Əvvəli 1-ci səhifədə)

Dayaq məntəqəsinə könlümü telləndirən bu düşüncələrlə çatmışıq. Bir anlığa ayaq saxlayıram. Neçə gün əvvəl əsgər Məhəmməd Məlikovun dediklərini uğurumun bundan beləsinin yolgöstərəni bilirəm: Vətən müharibəsi döyüş deməkdi, döyüş - əsgərlərimizin qələbəsi. Yəni, Vətən müharibəsi Azərbaycan Ordusunun qələbəsiylə başa çatacaq. Onda "Azərbaycan əsgərinin atacağı sonuncu güllə son yüz ilin ən möhtəşəm tarixlərindən biri olacaq", - demişdim. İnamımız ümidimizin, ümidimiz gümanlarımızın sığalına dönmüşdü. Bu xatırlamanı sonacan yaşamağa macal tapmamış qarşıda Dövlət bayrağımızın əzəmətlə dalğalandığını görürəm. Mən də duyuram ki, mərmi-mərmi yaralansa da, neçə gün əvvələ kimi yad nəfəsindən sıxılan torpaqlarımızın bət-bənizi özünə gəlməkdədi. Ürəyim





məni irəli - bir az əvvəl mühüm qələbə qazanmış döyüşçülərimizin əhatəsinə çəkməkdədi. Əminəm ki, əzəmətlə dalğalanan bayrağımızın əhatəsində ilk eşidəcəyim kəlmələr "Bayrağım - varlığım, bəxtiyarlığım" olacaq. O kəlmələri deyənləri - döyüşçülərimizin hamısını bağrıma basmaq istəyəcəm. Bu görüntünü Dövlət Bayrağı Günü ərəfəsində döyüşün "beş-on addımlığında" jurnalist taleyimə döyüşçü bayramlaşmağı biləcəm...

Bir az əvvəl döyüş olub, döyüş qələbə ilə tamamlanıb, gözəl bir ovqat yaşanılıb. Həmin ovqat gəlişimizə qoşa qollar açır. Döyüşçülər deyirlər ki, ən gözəl bayramlaşma, yəni, bayram təbriki müharibədə qazanılan qələbələrin sevincini üz-üzə, göz-gözə, diz-dizə yaşamaqdı. O gözəl anları yaşayırıq...

Salam-əleykimiz tamamlanar-tamamlanmaz yox yerdən təntələk yel əsir. Mənə elə gəlir ki, yel gördüyü qüruru - illərlə sıxıntılar çəkmiş ərazinin işğaldan qurtuluş sorağını yaxın-uzaq ellərə çatdırmaq üçün belə çılğınlaşıb. Zabit Sənan Həsənli deyir ki, bu çılğınlıq əsgərlərimizin döyüş əzminə həsədin çılğınlığıdı. “Əks-hücum əməliyyatı başlayana kimi əsgərlərimiz də torpaqlarımızı işğaldan azad edəcək döyüşlərin iştirakçısı olmaq amalıyla xidmət edirdilər. Vətən müharibəsi kimi davam edən əks-hücum əməliyyatı başladı. Əsgərlərimizin necə döyüşçüləşdiyini, xidmət amalının döyüş əzmini, döyüş əzminin qələbə ruhunu necə əvəzlədiyini ifadə etməyə söz tapa bilmirəm.

Hər qələbə Böyük Qələbəyə yaxınlaşdırır. Əsgərlərimiz də hər döyüş əmrini son döyüş ovqatıyla yerinə yetirir. Bugünkü döyüşdə də düşmən ağır itkilərə məruz qalıb: dayaq məntəqəsi dağıdılıb, düşmənin iki tankı, onlarla canlı qüvvəsi məhv edilib. Sağ qalanları geri çəkilib. Belə geri çəkilmələr, əslində, məğlubiyyət deməkdi. Məğlubiyyətini etiraf etməyən işğalçının çarəsiz müqaviməti davamlı ola bilməyəcək”.

Zabitin inamı könlümüzü telləndirir. Oktyabrın əvvəllərində düşmənin mövqelərini artilleriya atəşinə tutanlarımızın əhatəsində eşitdiklərimin eynini görürəm, eşidirəm. Bir boy da dikəlib eşitdiklərimi görmək istəyirəm. Gizir Əhməd İsmayılov zabitin fikirlərinə qüvvət kimi deyir ki, düşmənin ordusu dağıdılıb, düşmən indi döyüşlərə yaşlıları, azyaşlıları, xaricdən gətirilən muzdluları cəlb edir. “Muzdlularla natamam komplektləşdirilən dağınıq ordu Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu qarşısında dayana bilmir, yəni, qruplarla qaçır. Ermənilərin döyüşdən qaçanlarıyla döyüşləri davam etdirənləri arasında silahlı qarşıdurmalar da olur. Bu vəziyyətdə döyüşü davam etdirən dağınıq ordu tamamilə məhv ediləcək. Ali Baş Komandanımızın dediyi kimi, biz öz torpağımızda döyüşürük, onlar özgə torpağında. Bizim əsgərlərimiz öz torpağımızdan güc alıb döyüşür. Düşmənin əsgərləri isə qorxudan...

Döyüşlər başlayanda bir qədər müqavimət göstərən düşmənin müdafiə səddi dağıdıldı. Bu, onun məğlubiyyətinin başlanğıcıydı. Sonrakı döyüşlərlə geri çəkilməyə məcbur edilən düşmən neçə-neçə strateji əhəmiyyətli yüksəklikdən, iki yüzdən çox kənddən, üç qəsəbədən, dörd şəhərdən uzaqlaşdırıldı. İşğaldan azad edilmiş torpaqlarımızda bayraqlarımız dalğalanır. Bu, qələbə ruhu deməkdi. Bu, qələbənin növbəti qələbələrə çağırışıdı. Belə çağırışların səsi-sədası ictimaiyyətin dönməz inamına qarışır...”.

Əsgər Həsən Əzimov düşündürücü təkliflə komandirinə müraciət edir. Komandiri məmnunluqla razılıq verir. Əsgər coşqu ilə deyir:

- Ermənistan ordusunda döyüşən erməni əsgəri, ordunuzda baş verənləri mən bilirəmsə, sən məndən də yaxşı bilirsən. Yaxşı bilirsən ki, darmadağın etdiyimiz ordunuzda sizi adam yerinə qoymurlar. Hər gün təhqir olunursan, fiziki əzablarla üzləşirsən. Neçə-neçə əsgərinizin alçaldıldığını da görübsən. Onda düşünübsənmi ki, sən də belə aqibətlə üzləşə bilərsən. Ondan sonra



Azərbaycan əsgərinin gülləsiylə ölməsən, ömrün boyu gözükölgəli yaşayarsan. Döyüşdən qaçanlarınıza qarış. Qaçmasan, öldürüləcəksən, öldürülənlərinizə yiyə durannız da yoxdu, meyitin ata-anana yox, qurd-quşa qismət olacaq. Beş-on gün bundan əvvəl



döyüşdən qaçanlarınızla döyüşü davam etdirmək istəyənləriniz arasında əməlli-başlı qarşıdurma olub. Qaça bilirsən, qaç. Qaçmasan, səni ya ölüm, ya da zülüm gözləyir.

Bilmirəm, dediklərim Ermənistanın dağılmış ordusunda döyüşü davam etdirənlərə çatacaqmı, hər halda deyirəm. Yer qulaqlıdı...

Əsgər Ramiz Əhmədov döyüşçü yoldaşının fikrini bir qədər də şaxələndirir:

- Komandirimiz deyir ki, Ermənistan döyüşə din xadimlərini də göndərir. Onlardan biri əsir düşüb. Əsir erməni din xadimi deyib ki, döyüşə gəlmək istəmirdim, məni də güclə göndərdilər. Onun sözlərinə inanmaq da olar, inanmamaq da. Erməni xisləti çətinə düşəndə min yalan danışdırır. Döyüşmək istəməyənlərin olduğu da faktdır. Yadıma bir el məsəli düşür: "İlanın ağına da lənət, qarasına da"...

Zabit Sənan Həsənli qürurla əsgərə baxır, bu baxışlar əsgərin dediklərinin məmnunluğudu. Bu düşüncəylə döyüşən əsgərin qələbə qazanacağına inam baxışlarıdı bu doğma baxışlar. Baxır və deyir:

- Müharibə döyüş, döyüşçü deməkdi, döyüş əzmi deməkdi, qələbə ruhu deməkdi. Sentyabrın 27-də başlayan əks-hücum əməliyyatında, Azərbaycan üçün Vətən müharibəsində işğalçı Ermənistan başa düşdü ki, "bu xına o xınadan deyil". Nə zaman o zamandı, nə də Azərbaycan Ordusu o vaxtkı ordudu. Azərbaycan Ordusu ən müasir silahlarla, döyüş texnikalarıyla, uçuş aparatlarıyla təchiz olunub. Şəxsi heyət yüksək mənəvi-psixoloji hazırlığa malikdir. Bunları bilə-bilə döyüşü davam etdirməsinə, məğlubiyyətini etiraf etməməsinə dünyanın bəşəri dövlətləri nə ad verir, vermirsə, nə vaxt verəcək görəsən?

Zabitin fikirləri sual kimi səslənsə də sual deyil, hərbçi-vətəndaş marağıdı. Bu marağın ictimaiyyətin də marağı olduğuna zərrəcə şübhəm yoxdu. Zabit bir anlığa susur, alnını ovuşdurur. İti baxışları qarşı yaxaya yönəlir:

- Dünyanın gözləri kor, qulaqları kar deyil. Ermənistanın Mingəçevirə, Gəncəyə, Tərtərə, Bərdəyə ballistik raketlər atdığını, yüzlərlə evin dağıdıldığını, onlarla insanın, bu sıradan uşaqların öldürüldüyünü bilir. Dinmir. Görəsən, indiyə kimi haqqın tərəfində olmadığından xəcalət çəkirmi? Çəkirsə, işğalçını dövlət səviyyəsində qınasın...

- Qınayan özünün dünyəvi nüfuzunu yüksəldir, qınamayan nüfuz itirir. Tarixin min illərin o üzündən dikələn, gələn səsini hamısı eşidir: Azərbaycan dövlətçiliyi, Azərbaycan dövləti əbədiyyən var olacaq! Bu qətiyyət sizin qüdrətinizin qətiyyətidi, - deyirəm.

Əsgərlərin məmnun baxışlarında incə bir tərpəniş duyulur. Elə gözəl tərpənişdi ki! Beş-altı addım o yanda bayrağımızın əzəmətlə dalğalanması mənim də gözlərimin nurunu artırır, əsgərlərin, zabitlərin də. Əsgər Tariel Qasımov bu əzəməti qələbənin görüntüsü adlandırır: "Belə görüntüləri Ağdamda da, Kəlbəcərdə də, Laçında da, Şuşada da görəcəyik. Ordumuzun hər əsgəri Şuşa uğrunda döyüşlərdə iştirak etməyi arzulayır. Komandirimiz deyir ki, həmin günə Böyük Qələbə günü deyəcəyik.



Böyük Qələbə gününün sevincini orada yaşamaq mənim də istəyimdi, əsgər yoldaşlarımın da. Hərbi xidmətə başlayandan bu günəcən Vətən sevgisiylə döyünən ürəyimiz indi həm də bu istəklə döyünməkdədi. Haradan eşitdiyimi, ya oxuduğumu unutmuşam: tanımadığım əsgər qardaşlarım bayrağımıza varlığım deyib, bəxtiyarlığım deyib. Varlığımız, bəxtiyarlığımız olan bayrağımızı hər birimiz Şuşada dalğalandırmağı taleyimizin qazancı biləcəyik...”.

Əsgər İmadi Əmənov döyüşçü dostunun fikirlərini özünəməxsus fikirlə tamamlayır:

- Həmin məqamlar şəhid qardaşlarımızın ruhunun da gözaydınlığı olacaq. Bütün varlığımızla onların ruhuna xitabən "Düşməndən gərəkən qisası misilləriycə aldıq!" - deyəcəyik.

Kiçik çavuş Ziyəddin Məmmədov əməlli-başlı duyğulanıb, əli ahəstəliklə Tarielin çiyninə enir:

- Həmin gün sənin sağında dayanan mən olacam, ay Tariel. Sənin bu niyyətin əsgərlərimizin hamısının niyyətidi. Siz belə duru niyyətinizə görə güclüsünüz. Hərbi xidmətə bu amalla başlayıbsınız, bu amalla xidmət edirdiniz, indi bu amalla döyüşürsünüz. Şəhidlərimizin də əvəzindən döyüşürsünüz, döyüşürük. Şəhidlərimizin ruhu da sıramızdadı. Qalib gələcəyik, torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik.

(Ardı 5-ci səhifədə)

# Döyüşçülər "Bayrağım - varlığım, bəxtiyarlığım!" deyir, Vətənim!

(Əvvəli 4-cü səhifədə)

Zabit Sənan Həsənli əsgərlərin mükalimələşməsini "Digər hərbi hissələrin əsgərləri kimi sizin də döyüş ruhunuz yüksəkdir. Bu ruh Vətən müharibəsinin mahiyyətinin ruhudu, yəni, qələbə ruhudu. Şəhid yoldaşlarınızın qisasını almısınız, sonrakı döyüşlərdə də düşmənin başına od ələyəcəksiniz" kəlmələriylə tamamlayır.

Qəhrəmanlardan, qəhrəmanlıqlardan söz düşür.

- Qəhrəmanlıq sevgidən yaranır. Vətənini, xalqını böyük məhəbbətlə sevənlər məqamında ürəyinin hökmüylə ilingünün bir anını tarixləşdirir. Azərbaycanın Milli Qəhrəmanı Etibar İsmayılov qumbara ilə düşmən tankının altına bir anın içində atıldı, Rasim İbrahimov özünü də, onu əsir almaq istəyən erməniləri də qumbara ilə bir anın işində partlatdı. Qəhrəmanlığın başlanğıcı bir andır, ömrü - əbədi. Döyüşürsünüz, xalqın sevgisi də sıranızdadı. Ona görə qüdrətlisiniz. Ona görə yaxın vaxtlarda xalq sizi qalib əsgər kimi bağrına basacaq, - deyirəm.

Zabit Sənan Həsənli fikrimə söykək kimi deyir:

- Vətən müharibəsində əs-



gərlərimizin, zabitlərimizin hər biri qəhrəmanlıqla döyüşürlər. Döyüş-döyüş qələbələr qazanırsınız. Torpaqlarımızı döyüş-döyüş işğaldan azad edirsiniz. Qələbədən sonra Vətən müharibəsindən söz düşəndə adı çəkilən qəhrəmanlar da ehtiramla xatırlanacaq, adı çəkilməyənlər də. Sizin heç biriniz qəhrəman olmaq üçün döyüşmürsünüz, qəhrəmanlıqla döyüşürsünüz. Yəni, amalınız qələbədi...

Bayaqdan bəri baxışları bayrağımızın əzəmətli dalğalanmasından üzülməyən əsgər Ramiz Əhmədov zabitin fikirləri hamının qürurunu kükrədən bir məqama yönəldir:

- Mübariz İbrahimov tək döyüşmək niyyətiylə düşmənin mövqeyinə getdi. Döyüşdü. Neçə-neçə düşmən öldürdü, sonda şəhid oldu. Bu qəhrəmanlıq düşməni uzun müddət qorxu içində saxladı. Qorxudan sarısını udan düşmən bu qəhrəmanlığın mahiyyətindən qorxurdu.

- O vaxtlarda Mübarizləşmə təyini yarandı, - deyirəm.

Əsgər Ramiz Əhmədov fikrimin davamı kimi deyir:

- O illərdə də, sonralar da



Mübariz İbrahimov çağırışçıların, gənc əsgərlərin hər birinin qəhrəmanlıq nümunəsi oldu. Çingiz Qurbanovun qəhrəmanlığı mübarizləşmənin təzahürüydü. O da eyni mahiyyətli qəhrəmanlıq göstərdi. Azərbaycanın hər iki Milli Qəhrəmanı bu müharibədə qəhrəmanlıq örnəyi yaratdı.

Mübariz, qətiyyətli, cəsarətli, qorxu bilməz bir zabit olan Elvin Şükürlünün qəhrəmanlığını məsafə baxımından xeyli aralıda olan döyüş bölgəsində də bilirmişlər. Gizir Əhməd İsmayılov qələbə ruhunun, Mübarizləşmənin təzahürü olan həmin qəhrəmanlığı xatırlayır, xatırladır:

- Zabit Elvin Şükürlü şəraitə görə düşmənin mövqeyinə tək gedib. Səngərin girəcəyində rastlaşdığı düşmənə atəş açmamaq üçün onun üstünə atılıb, onu boğaraq öldürüb. Hənirti səsinə gələnlərdən daha üçünü öldürüb. Ermənilər məqam tapıb onu güllələyiblər. Zabitimiz şəhid olub. Onun bu qəhrəmanlığı Mübariz İbrahimovun qəhrəmanlığının mahiyyətinin təkrarıdı. Vətən müharibəsində bu qəbil qəhrəmanlıqlar çox olub, Böyük Qələbəyəcən olacaq da. Qəhrəmanlıq xalqımızın ruhundadı.

- Hamının alnının qırışına dönən bu xatırlatma qürurdan sızan həsəddimi, həsədin bayraqlaşdırdığı qürurdumu? - maraq kimi, həsədə həsəd kimi soruşuram.

Zabit Sənan Həsənli əsgərlərin baxışlarını, duruşunu birər-birər gözlərinə köçürür, bu köçürməni əsgərlərin hər birinin qəhrəmanlıq ruhuna zabit inamı bilirəm, fikrimə münasibəti əsgərlərimizin mənəvi kamilliyinə zabit zəmanəti:

- Döyüşçülərimiz Mübariz İbrahimovun da qəhrəmanlığını bilirlər, Çingiz Qurbanovun da. Əks-hücum əməliyyatı, bu əməliyyatın məntiqi davamı kimi Vətən müharibəsi başlayana kimi torpaqlarımızı işğaldan azad edəcək döyüşlərdə iştirak etmək istədiklərini bildirən əsgərlərimiz deyirdilər ki, məqamında biz də Mübariz kimi, Çingiz kimi döyüşəcəyik. Gizirin, əsgərin qəhrəmanlığının mahiyyətini zabitin təkrarlaması ordumuzun döyüş ruhunun, qələbə əzminin, sizin sözünüzün qüvvəti, döyüşə sevgisinin təzahürüdür.

Mübariz İbrahimovun döyüşdüyü, şəhid olduğu mövqedə ermənisizləşdirilib. Həmin mövqedə indi Azərbaycanın Dövlət bayrağı dalğalanır. Mübarizin timsalında bütün şəhidlərimizə qazanılan qələbələrin xoş sorağı kimi dalğalanır...

Zabitin dedikləri döyüşdən, qələbədən sonra yaşanılmış, indi də yaşanılan ovqatın "möhürbəndinə" dönür; bu gözəl ovqat hamımızın baxışlarını göy üzünə yayılmış bayrağımıza yönəldir. Bayrağımızın bənzərsiz dalğalanması zabitin dediklərinin təsdiqi kimi ha-



mımızın könlünü coşdurur. Çavuş Qarabəy Əhmədzadə nə vaxtsa oxuduğu, indi də yaddaşında qalan misraları xatırladır: Əllərdə, könüllərdə və dillərdə qərar tut, Olsun bu Vətən torpağı başdan-başa bayraq! O qədər həvəslə, o qədər çılğınlıqla deyir ki, bu çılğınlığın döyüş əzmindən, qələbə ruhundan, döyüşə sevgidən süzüldüyünə zərrəcə şübhə etmirəm.

Hamının dərin məzmunlu baxışı bu gözəl misralara, misraların ifadə etdiyi gözəl mətləbə görə, Dövlət Bayrağı Günü ərəfəsində bayrağa bu sev-



gini səsləndirdiyinə görə minnətdalıq kimi, ehtiram kimi çavuşa yönəlir. Bu görüntü mənə indi xəyalən, yaxın vaxtlarda həqiqətən yaşayacağım anları nişan verir. Vətən müharibəsi Böyük Qələbəylə tamamlandıqdan sonra Cıdır düzünə qalxacağıq, əsgərlərimizin əhatəsində İsa bulağına düşəcəyik, ruhumuza aydınlıq suyu vurmağa. Dalğalanan bayraqlarımıza heyranlıqla baxırıq. İllərlə arzuladığımız, ordumuzun bizə yetirdiyi bu könül xoşluğunu son nəfəsəcən yaşadacağıq, şübhəsiz...

Zabit əsgərlərin fikirlərini ümumiləşdirir:

- Azərbaycan Ordusunun əsgərləri həm yüksək döyüş qabiliyyətinə, həm də yüksək mənəvi-psixoloji hazırlığa malikdir. Onların hər birinin döyüş növbətçiliyinin mahiyyəti torpaqlarımızı işğaldan azad etmək istəyi olub. Bu döyüşlər, yəni, Vətən müharibəsi onların istəyini gerçəkləşdirir. 200-dən artıq kənd, üç qəsəbə, dörd şəhər ermənisizləşdirilib. Düşmən tam məğlubiyyət ərəfəsindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyanın Rai-1 televiziya kanalına müsahibəsində dediyi bir fikir hər birimizin qələbə ruhunu coşdurur: "...biz hər halda bu torpaqları qaytaracağıq. Döyüş meydanında bugünkü vəziyyət də bunu göstərdi. Biz onları nəyin bahasına olsa, qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq...". Döyüşçülərimiz Ali Baş Komandanın qətiyyətlə dediklərini cəsarətlə gerçəkləşdirirlər...

Zabitin dedikləri bir həqiqəti indi, bir döyüşdən sonra, bu döyüşü tamamlayacaq başqa döyüşdən əvvəl də yaşadır: Ali Baş Komandanın sərkərdəliyiylə qazanılan qələbələr ictimaiyyətin qələbə ovqatıdı, bu ovqat tam qələbəyə köklənmiş ovqatdı. Bu ovqat döyüşçülərin döyüş sevgisiylə - döyüş əzmiylə, qələbə ruhuyla elə gözəl tamamlanır ki! Yadıma ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Yusif Mirzəyevin dedikləri düşür: "Xalqın qələbəyə inamı döyüşçünün inamıyla taraz olanda, xalqın nəfəsi döyüşçünün kürəyini isidəndə, zabit əsgərinin qələbə ruhuna inananda qazanılır qələbə". Azərbaycan əsgəri belə döyüşçüləşib, belə döyüşür, belə döyüşə-döyüşə qələbələr qazanır. Bir qədər aralıdan naməlumluğa baxan əsgərin duruşu çəkir diqqətimi. Zabit də, əsgərlər də baxışımın səmtinə baxırlar. Məlum olur ki, bu əsgər Qubadlıdandı. Rayon azad ediləndə bu istiqamətdə döyüşlərdə olub. O da şəhərin azad edilməsinə əsgərlərin hər biri kimi sevinib, ata-anasının, qohumlarının doğulub boya-başa çatdığı doğma yurdunun azad edilməsinə ayrıca sevinib. İndi müharibənin tezliklə başa çatmasına, Böyük Qələbədən sonra Qubadlıya getməyə, ata yurdunu öz əlləriylə dikəltməyə niyyətlidi.

Nə gözəl niyyətdi!

Gözəl bir günün gözəl davamı gözəl yaşanılacaq!

Elə tarixi günlər var ki, yaddan çıxmır, sülh vaxtlarında da, müharibədə də.

Bayraq Günü ərəfəsində döyüşlərin "beş-altı" addımlığındayıq. Ordumuz döyüşür, döyüşə-döyüşə qələbələr qazanır, qazanılan qələbələrə görə Dövlət bayrağımız işğaldan azad edilən ərazilərdə dalğalandırılır. Azərbaycan əsgərinin qüdrət əlləriylə dalğalandırılır. Çavuş Qarabəy Əhmədzadənin dediyi misralar Vətən müharibəsində ordumuzun döyüşlərinin sonunu ifadə edir: torpaqlarımız işğaldan tamamilə azad ediləcək və bu torpaqlarımızda da qalibiyyət bayraqları belə əzəmətlə dalğalanacaq.

Bir az əvvəl yel əsirdi, kəsib...



Bir az əvvəl göy üzündə bir-iki əlçim bulud dolaşırdı, indi gözə dəymir...

Bir az əvvəl də qələbə ovqatı vardı burada, indi də var, döyüş əmri veriləndən sonra bu ovqat da döyüşçülərin ruhuna hopacaq, döyüşə-döyüşə Vətən müharibəsini son döyüşə aparmaqla döyüşəcəklər...

Qələbədən sonra indi döyüşlər gedən ərazilər də əkilib-becəriləcək, müharibənin izi torpaqda deyil, tarixdə qalacaq. Həmin tarixi bəşəri dövlətlər dərin ehtiramlarla xatırlayacaq. Bir işğalı sonlandıran tarix kimi, bir terror sistemini dağıdıb sıradan çıxaran tarix kimi. Xalq şairi Vaqif Səmədoğlunun bir kitabının adını xatırlayıram: "Mən burdayam, İlahi". Qələbədən sonra Cıdır düzündə qalib əsgərlərimiz "Biz burdayıq, İlahi!" deyəcəklər. Bu gözəl kəlmələri göz açıb-yumunca mən də təkrarlayacam. Mənə elə gəlir ki, bu kəlmələr onda "Azərbaycan!", "Can Azərbaycan!" səsləşməsinə qarışacaq...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**